Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Bədən tərbiyəsi və idman fəaliyyəti idarə obyekti kimi

*Məlahət Babayeva*[1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** sosial, iqtisadi, mühit, idman, idarə

İdmanda ən aktual problemlərdən biri də bu gün uşaqlar, yeniyetmər və gənclərin fiziki aktivliyini artırmaq problemidir. Gənc idmançının nə qədər yaxşı göstəriciləri və şərtləri olsa da yüksək nəticələr əldə etmək üçün ən vacib amil sistemli və aktiv çalışmaqdır. Bundan əlavə, bədən tərbiyəsi və idmanın bütün sosial funksiyalarını (sağlamlıq, təhsil, əyləncə, müdafiə, iqtisadi və s.) yalnız idman fəaliyyəti prosesində reallaşdırmaq mümkündür. [1].

İdman idarəçisi-həm nəzəri, həm də bu sahə üzrə müxtəlif praktiki bilikləri olan ekspert olmalıdır. Sosial-iqtisadi baxımdan idman və bədən tərbiyəsinin idarə edilməsi hər zaman qabaqcıl sahələrdən olmuşdur. İdman və bədən tərbiyəsinin idarə edilməsi menecmentin bütün sahələri ilə üst-üstə düşür. İdman menenceri idmançının sosial-iqtisadi aspektdən bütün problemlərini həll etməli, düzgün qərarlar qəbul etməlidir.

İdman fəaliyyəti – sistemli məşq, yarışma və yüksək idman nəticəsinə nail olmağı hədəfləyən sosial əhəmiyyətli fəaliyyətlərdən biridir. Məhz idman fəaliyyəti müstəqil idarəetmə obyekti kimi çıxış edir. Bu fəaliyyəti effektiv idarə etmək üçün, hər şeydən əvvəl, ona təsir edən bütün amilləri bilmək vacibdir. İnsanların idman fəaliyyətinə sosial makro və mikro mühit, idmançının fərdi-şəxsi xüsusiyyətləri, idman sahəsi və məşqçinin peşəkarlığı, təlimin maddi və proqram üzrə təminatının səviyyəsi təsir edir. [2].

Sosial makro mühit dedikdə bədən tərbiyəsi və idman fəaliyyətinə bütöv bir cəmiyyətin əhəmiyyətli təsir göstərməsi başa düşülür. Bu təsir ilk növbədə cəmiyyətdə idmanın statusu ilə müəyyən edilir. Yəni burada idman və bədən tərbiyəsinə dövlətin, kütləvi kommunikasiya, maliyyə investisiyalarının dəstəyi nəzərdə tutulur.

Sosial mikro mühit (ən yaxın sosial mühit) mürəkkəb, səviyyəli bir quruluşa malikdir. Buna ətrafdakıların "idman mühiti" aiddir. [3].

İdmançının maddi və proqram-metodik təminatı təbii olaraq onun karyerasına güclü təkan verir.

Bunlara aşağıdakılar daxildir:

- idman bazası və vəziyyəti;
- trenajorlar və digər texniki qurğular;
- tibbi, biokimyəvi vasitələr və pedaqoji nəzarət;
- reabilitasiya, fizioterapevtik və psixoloji vasitələr;
- idmançıların seçilməsi, məşqləri, təlimləri və proqramları;
- təlim və müsabiqələr üçün tərəfdaşların mövcudluğu;
- yarışlara, müsabiqələrə və seçmə turlarına getmək üçün maliyyə imkanları.

Ümumiyyətlə, idarəetmə keyfiyyəti əsasən liderin şəxsi xüsusiyyətlərindən, sosial və peşə statusu ilə yerinə yetirən rollardan, liderlik



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

tərzindən və qrup fəaliyyətini təşkil edən yoldan asılıdır.

**Ədəbiyyatlar:**

1. Musayev İ.B.Fiziki tərbiyənin əsasları. B,, 1991
2. Qurbanov H.H. Əsgərov A.Y., Ramazanov.Ə.X. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. B., "Avrora" nəşr, 2006
3. Baxşəliyev R.Fiziki və hərbi-tətbiqi təlimlərin fizioloji əsasları. Bakı.1977-ci il.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.